# AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANLARI



**Quliyev Mədət Qəzənfər oğlu**

27 sentyabr 1958-ci ildə Gəncə şəhərində anadan olub. 1975-ci ildə 8 nömrəli orta məktəbi bitirib. 1976-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olub. 1980-ci ildə Sovet Ordusu sıralarına çağırılıb. 1982-ci ildə ordudan tərxis olunaraq Gəncənin "Dinamo" Cəmiyyətində təlimatçı, sonra Gəncə şəhər Daxili İşlər İdarəsinin komsomol təşkilatının katibi olub. Bir ildən sonra Respublika Daxili İşlər Nazirliyində fəaliyyətə başlayıb. 1994-cü ildə Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsində regional şöbənin rəisi, 1995-ci ildə həmin idarənin reketlə mübarizə şöbəsinin rəisi işləyib.

1994-cü il oktyabrın 4-də Gəncə hadisələri zamanı şöbənin əməkdaşları ilə birlikdə dövlət çevrilişinə cəhd göstərən cinayətkar dəstənin ləğv edilməsində də fəal iştirak edib. 1997-ci ildə Azərbaycan Respublikası DİN-nin Polis Akademiyasını bitirib.

1996-cı ildə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəis müavini, 2001-2002-ci illərdə isə həmin idarənin rəisi vəzifəsində çalışıb.

2002-ci ildə DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, 2004-cü ildə İnterpolun Azərbaycan üzrə Milli Mərkəzi Bürosunun rəisi işləyib. 2006-cı ildən DİN-nin Baş Mühafizə İdarəsinin rəisi vəzifəsində çalışıb, ədliyyə nazirinin müavini olub, Penitensiar Xidmətin rəisi vəzifəsində işləyib.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə general-leytenant rütbəsi verilməklə milli təhlükəsizlik nazirinin birinci müavini vəzifəsinə təyin edilib. 2015-ci il dekabrın 14-dən Dövlət Təhlükəsizliyi Xidmətinin rəisidir.

Evlidir. İki övladı var.

Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 1995-ci il tarixli fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.



**Quliyev Vahid Həbibulla oğlu**

20 sentyabr 1955-ci ildə Cəbrayıl rayonunun Qumlaq kəndində anadan olub. 1972-ci ildə Zəngilan rayonunda Hacalıkənd orta məktəbini bitirib. 1974-1976-cı illərdə ordu sıralarında xidmət edib. 1981-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini bitirib. Laçın rayonunun Fərəcan kəndində 3 il müəllimlik etdikdən sonra Bakıya qayıdaraq "Azon" Cihazqayırma Zavodunda sahə rəisi vəzifəsində çalışıb. 1992-ci ilin avqust ayında Yasamal Rayon Hərbi Komissarlığına gələrək, cəbhəyə göndərilməsini xahiş edib. Onu bir zabit kimi döyüş xəttinə yola salıblar. Sentyabrın 7-də Ağdam istiqamətində döyüşə girib, düşmənin bir tankını vurub, erməni yaraqlılarının hücumunun qarşısını alıb. Oktyabrın 14-də Qubadlıya göndərilib. Burada da rəşadətlə vuruşub. 28 fevral 1994-cü ildə yenidən Ağdam döyüş bölgəsinə dönüb. Xidmətə başlayan gündən atəşkəs elan olunana qədər düşmənin on zirehli texnikasını sıradan çıxarıb.

1996-cı ildə BDU-nun hərbi kafedrasında müəllim, 2000-ci ilin avqust ayından 2002-ci ilin oktyabrına qədər Azərbaycan Ali Hərbi Məktəbində baş müəllim kimi fəaliyyətini davam etdirib. 26 oktyabr 2002-ci ildə isə ordudan tərxis olunub. Bir müddət Azərbaycan Silahlı Qüvvələrinin Təlim-Tədris Mərkəzində müəllim işləyib. Hazırda təqaüddədir.

Ailəlidir. İki övladı var.

Azərbaycan Respublikası Prezidentinin 9 noyabr 1994-cü il tarixli fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.



**Quliyev Zabit Adil oğlu**

6 iyun 1975-ci ildə Kürdəmir rayonunun Ərəbxana kəndində anadan olub. 1992-ci ildə kənd orta məktəbini bitirib. Bir müddət doğma yurdda təsərrüfat işləri ilə məşğul olub, mexanizator kimi əkin-biçində yaxından iştirak edib.

1993-cü ilin sentyabrında Milli Orduya çağırılıb və birbaşa döyüş bölgəsinə göndərilib.

Füzuli, Ağdam, Ağdərə və Tərtər bölgələrində gedən döyüşlərdə rəşadətlə vuruşub, sərrast atəşlə düşmənin ağır döyüş texnikasını sıradan çıxarıb, neçə-neçə hücumun qarşısının alınmasında yüksək döyüş məharəti göstərib. Təkcə Seysulan kəndində gedən ağır döyüşlər zamanı düşmənin 4 tankını vurub.

Qəddar və məkrli ermənilər tərəfindən cəlb edildiyimiz müharibənin bütün ağrı-acılarını o da qeyrətli Vətən övladları ilə birgə yaşayıb. Qismətinə düşən bu sarsıntılı, məşəqqətli günlərdən, ağır sınaqlardan üzüağ, alnıaçıq çıxıb, özünü mahir atıcı kimi tanıdıb.

Ailəlidir. Bir övlad atasıdır.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.



**Quliyev Mətləb Kamran oğlu**

9 yanvar 1959-cu ildə Beyləqan rayonunda anadan olub. Ailəsi ilə Sumqayıt şəhərinə köçərək buradakı 13 nömrəli orta məktəbin səkkizinci sinfini bitirib.

Hərbçi olmaq həvəsi onu C.Naxçıvanski adına məktəbə gətirib. Hərbi məktəbi müvəffəqiyyətlə bitirib. Bir müddət Giləzi quşçuluq fabrikində, sonra isə Ceyranbatan Avtomobil Nəqliyyatı Trestində çilingər işləyib. Az keçməmiş ki, ordu sıralarına çağırılıb. Ordudan tərxis olunan il Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olub. 1985-ci ildə ali məktəbi bitirib Sumqayıt şəhər 3 nömrəli orta məktəbdə hərbi hazırlıq müəllimi kimi çalışmağa başlayıb.

1992-ci ildə daxili işlər orqanında işə düzəlib. Tez-tez cəbhə bölgələrinə gedir, döyüş yoldaşlarına dayaq olub.

1992-ci il avqustun 31-də Ağdam bölgəsində ağır döyüşlər gedirdi. Strateji əhəmiyyətli yüksəkliklər ermənilərin əlində idi. Mətləb pulemyotu əlinə götürüb düşmən üstünə şığıyır. Onlarla erməni yaraqlısını məhv edir. Erməni quldurları onun pulemyotunun darağında güllənin qurtardığını hiss edir və hər tərəfdən hücuma keçirlər. Bu qeyri-bərabər döyüşdə qəhrəmancasına həlak olur.

Ailəli idi. Bir oğlu, bir qızı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib. Sumqayıt şəhər 3 nömrəli tam orta məktəb onun adını daşıyır. Məktəbin önündə büstü qoyulub. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulub.



**Quliyev Nofəl Zahid oğlu**

4 oktyabr 1963-cü ildə Şirvan şəhərində (keçmiş Əli Bayramlı) anadan olub. 1981-ci ildə şəhər 9 nömrəli orta məktəbini bitirib. 1982-ci ildə ordu sıralarına çağırılıb.1984-cü ildə əsgəri xidmətini başa vurub, bir müddət Bakı Məişət Kondisionerləri zavodunda çalışıb. 1984-cü ildə ailəsi ilə birlikdə Tümen şəhərinə köçüb, burada işləyə-işləyə tikinti texnikumuna daxil olub. Altı il burada yaşadıqdan sonra doğma yurda dönüb. Bakıdakı tikinti idarələrindən birində işə düzəlib. Bir müddətdən sonra siravi polis nəfəri kimi işə qəbul olunub. Tez-tez döyüş bölgələrinə ezamiyyətə göndərilib.

1991-ci ilin dekabrında Goranboyun Todan kəndi güclü hücuma məruz qalanda dostları ilə birlikdə silaha sarılaraq döyüşə yollanıb. Bu döyüşdə yaxınlıqdakı yüksəklikdə özünə mövqe seçərək döyüşə-döyüşə geri çəkilir. Sona qədər mərdliklə vuruşur və düşmənə əsir düşməmək üçün son gülləsini ürəyinə sıxır.

Ailəli idi. Bir övladı var.

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Şirvan şəhərində Şəhidlər xiyabanında dəfn edilib. Şirvan şəhər 9 nömrəli tam orta məktəb onun adını daşıyır.



**Quliyev Mirzə Məcid oğlu**

11 yanvar 1974-cü ildə Bərdə rayonunun Saatlı kəndində anadan olub. 1991-ci ildə Saatlı kənd orta məktəbini bitirib. Elə həmin il Mingəçevir şəhərindəki 39 nömrəli texniki-peşə məktəbində təhsilini davam etdirib və qaynaqçı peşəsinə yiyələnib.

1992-ci il avqustun 25-də Bərdə Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu ərazisində PDM-də tuşlayıcı-atıcı kimi döyüşə başlayıb. Batabat ərazisində gedən döyüşlərdə mərdliklə vuruşub.

1993-cü il iyulun 28-dən Füzuli, Ağdam, Tərtər və Ağdərə rayonları uğrunda döyüşlərdə əsl fədakarlıq nümunəsi göstərib.

"Hərbi xidmətlərə görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.

1995-ci ildə Polis Akademiyasının qiyabi şöbəsinə daxil olub. 1996-cı ilin oktyabr ayında Milli Ordu sıralarından azad edilib. 1997-ci ildə Bakı şəhər Baş Polis İdarəsinin Çevik Polis Alayında polis nəfəri kimi fəaliyyətini davam etdirib. 2003-cü il mart ayının 5-də Nəsimi rayon 20-ci bölməsində əməliyyat müvəkkili təyin edilib. İndi kapitan rütbəsində həmin bölmədə cinayət axtarışı üzrə baş əməliyyat müvəkkili vəzifəsində işini davam etdirir.

Ailəlidir. Bir övladı var.



**Quliyev Aqil Sahib oğlu**

19 sentyabr 1963-cü ildə Qərbi Azərbaycanın Sisyan rayonunun Urud kəndində anadan olub. 1980-ci ildə orta məktəbi bitirib, Azərbaycan Dövlət Neft Akademiyasının axşam şöbəsinə daxil olub. Üçüncü kursda oxuyanda ordu sıralarına çağırılıb. Əsgəri xidmətini başa vurduqdan sonra 1982-ci ildə Xarkov Ali Milis Məktəbinə daxil olub. 1986-cı ildə həmin məktəbi fərqlənmə diplomu ilə bitirərək orada müəllimlik etməyə başlayıb.

1988-ci ildə ailəsi ilə birlikdə Bakıya gəlib. Milli Ordunun qərargahına gələrək cəbhəyə göndərilməsini xahiş edib. 45 nəfər döyüşçü ilə birlikdə Ağdam bölgəsinə göndərilib. Rota komandiri təyin edilib. Öz dəstəsi ilə mühasirədə olan Xocalıya yollanıb. Lakin döyüşçülərin sayca az olması və silah-sursatın çatışmaması mühasirəni yarmağa imkan verməyib.

1992-ci il fevralın 18-dən 25-nə qədər Xocalıda davam edən döyüşlərdə böyük rəşadətlə vuruşub. Bu döyüşlərin birində - "Qaz kontoru" deyilən yerdə hər iki ayağından yaralanıb.

Fevralın 25-də döyüş dostları onu təhlükəsiz yerə aparmağa cəhd göstəriblər. Lakin Kətik kəndi yaxınlığında o, düşmən gülləsinə tuş gəlib.

Ailəli idi. Bir qızı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn olunub. Bakının Bayıl qəsəbəsindəki küçələrdən biri onun adını daşıyır. Yaşadığı binanın önündə xatirə lövhəsi vurulub.



**Quliyev Emin Ələkbər oğlu**

12 avqust 1976-cı ildə Bakının Qaradağ rayonunun Sahil qəsəbəsində anadan olub. 1993-cü ildə 273 nömrəli məktəbi bitirib. 25 avqust 1994-cü ildə Milli Orduya çağırılıb. Yalamada hərbi təlim keçdikdən sonra hərbi hissəyə göndərilib.

Xidmət etdiyi batalyonun əsgərləri 1995-ci il fevral ayının əvvəllərində Şubanıya ezam olunub. Artıq bu ərəfədə ölkədə siyasi sabitliyi pozmağa çalışan bir dəstə hakimiyyət hərisi dövlət çevrilişinə can atırdı. 13 mart 1995-ci ildə çağırışlara tabe olmayan bu dəstə öz çirkin əməllərini həyata keçirmək üçün silahlı əməliyyata başlayır. Milli Ordunun əsgərləri hadisə yerinə çatanda silahlı toqquşma artıq başlamışdı. Emin cinayətkarlara qarşı aparılan əməliyyatda fəal iştirak edir, əsl qəhrəmanlıq nümunəsi göstərir. Lakin güllələrdən biri ondan yan keçmir. O, gözlərini əbədi yumur.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Məzarı doğulduğu Sahil qəsəbəsindəki Şəhidlər xiyabanındadır.

Qəsəbədəki 14 nömrəli xüsusi internat məktəbi, Qaradağ rayonunda bir küçə və park onun adını daşıyır.



**Quliyev Nazim Qabil oğlu**

7 fevral 1965-ci ildə Beyləqan rayonunun Örənqala kəndində anadan olub. 1982-ci ildə kənd orta məktəbini bitirdikdən sonra hərbi xidmətə çağırılıb. Xidmətini başa vuraraq doğma yurda qayıdıb və 2 saylı şərab zavoduna işə qəbul olunub.

1991-ci ilin aprel ayında Füzuli Rayon Polis Şöbəsində təşkil olunan post-patrul rotasına sıravi polis kimi işə qəbul olunub. Füzuli bölgəsində yerləşən kəndlərin müdafiəsi uğrunda gedən döyüşlərin əksəriyyətində iştirak edib və dəfələrlə fərqlənib. Cuvarlı, Tuğ, Məlikcan, Arış, Divanallar kəndləri uğrunda gedən döyüşlərdə rəşadətlə vuruşub.

9 yanvar 1992-ci ildə Köşbək kəndi uğrunda gedən döyüşlərdə öz dəstəsi ilə mühasirədə qalan əsgərlərimizə kömək edərək onları mühasirədən çıxarır. Bunun ardınca yeni tapşırıq alır. O, vaxt itirmədən idarə etdiyi BTR-i birbaşa düşmən üzərinə sürür. İlk həmlədə ermənilərin 2 əsas döyüş nöqtəsi susdurulur. Bununla da mühasirədə qalmış hərbi texnikanı azad etmək mümkün olur. Lakin düşmən gülləsi igid döyüşçüdən yan keçmir. O, 27 yaşında gözlərini əbədi yumur.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Füzuli rayonu ərazisində dəfn edilib. Füzuli rayonunun yuxarı Yağləvənd və doğulduğu Örənqala kənd orta məktəbləri onun adını daşıyır.



**Qurbanov Novruz Əliyullah oğlu**

1975-ci il iyunun 2-də Ağstafa rayonunun Yuxarı Göycəli kəndində anadan olub. 1992-ci ildə burada orta məktəbi bitirib. 1993-cü il iyulun 3-də Milli Orduya çağırılıb. Xeyli müddət hərbi təlimlərdə iştirak edib. Sonra torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərə qatılıb.

1995-ci il martın 13-də mənfur niyyətli bir qrup millət xaininin başçılıq etdiyi silahlı dəstə dövlət çevrilişi planı hazırlayanda Milli Ordumuzun tərkibində bu dəstənin zərərsizləşdirilməsində iştirak edib. Müstəqilliyimizin qorunub saxlanılması üçün əsgəri rəşadət göstərib. 17 mart 1995-ci ildə bu döyüşdə şəhid olub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Yuxarı Göycəli kəndində dəfn edilib. Doğulduğu kənddə büstü qoyulub.

*Məlumatların hazırlanmasında "Heydər Əliyev və Azərbaycanın milli qəhrəmanları. Müqəddəs amal" kitabından istifadə olunub.*